# İran Azərbaycanı təhdid edə biləcəyi gücdə deyil

İran əsəb içindədir. Azərbaycan illərlə işğal altında olan torpaqlarını düşməndən azad edir, İran qəzəblənib od püskürür. Ordusunu cəmləyib sərhədlərimizə qədər gətirir. Azərbaycan illərlə blokadada olan Naxçıvana getmək üçün Zəngəzur dəhlizinin açılmasını istəyir, İran buna qarşı çıxır. İranda insanlar aclığa, səfalətə, avtoritar rejimə etiraz edir, bu ölkənin Azərbaycana olan kini, qəzəbi, nifrəti daha da artır. İranın hiddəti o həddə çatır ki, beynəlxalq qanunları heçə sayır, qonşuluq münasibətlərinə məhəl qoymadan, səfirliyimizdə terror törədir.

İran Azərbaycanın hər uğurunu öz uğursuzluğu hesab edir. Azərbaycanın müstəqilliyi möhkəmlənib, beynəlxalq aləmdə siyasi nüfuzunun artması, hərbi cəhətdən qüdrətlənməsi İrana ağır bir dərd olur. İran qonşuluqda demokratik, müstəqil Azərbaycanı öz varlığına təhdid hesab edir. Bu ölkənin rəsmiləri, molla rejimi Cənubi Azərbaycanda yaşayan 40 milyondan çox soydaşımızın varlığını həzm edə bilmir. Molla rejiminin ideoloqları dərk edirlər ki, bir gün İranda yaşayan insanlar öz azadlıqlarını tələb edəcəklər. Aclığa, yoxsulluğa, hüquqsuzluğa etiraz edəcəklər. Sosial qayğılarla yüklənib zülm-zillət çəkən xalq "ayətullah"ların boş, cəfəng moizələrini dinləməyəcəklər. Öz haqlarını, hüquqlarını tələb edəcəklər. Necə ki, İranda uzun müddətdir etirazlar davam edir. İran qaynar qazana bənzəyir. Ötən il qadınların çadraya etiraz etmələri ilə başlayan mitinqlər, küçə yürüşləri böyüyərək daha geniş miqyas aldı. Etirazçılar "İnflyasiya və bahalıq xalqın canını alıb", "Diktatora ölüm!", "Azadlıq!", "Xameneyi qatildir, rəhbərliyi batildir" və sairə şüarları səsləndirdilər. Müxtəlif kateqoriyanı əhatə edən insanlar tətillərə qoşuldu. 200-dən çox şəhərdə gənclər, qocalar, müxtəlif millətlərdən olan insanlar etiraz aksiyalarına qoşularaq meydanlarda azadlıq tələb etdilər. Bu hadisələrin fonunda Cənubi Azərbaycanda indiyə kimi ən adi insan haqları pozulan, hüquqları əlindən alınan, fars molla rejiminin istismar etdiyi, öz ana dilində bir məktəbi, qəzeti olmayan cənublu qardaş və bacılarımız da "Azadlıq. Ədalət. Milli hökumət" şüarı ilə öz tələblərini açıq şəkildə ortaya qoydular.

Molla rejimi meydanlarda səslənən tələbləri yerinə yetirmək əvəzinə milli ayrı-seçkilik toxumu səpməklə, ədavət yaratmaqla, daha çox etiraz edən soydaşlarımıza qarşı divan tutmaqla məşğul olur. İnsanları silah gücünə susdurmaqla, qətlə yetirməklə, zorla, güclə, təzyiq altında saxlamaqla rejim öz ömrünü uzada biləcəyini düşünür.

Bu gün İran iqtisadi, siyasi böhran keçirir. İran pulu sürətlə dəyərini itirir. Hakimiyyət daxilində də böhran özünü açıq şəkildə göstərir. Mollalar, avtoritar rejimin qurucuları və tərəfdarları edam tələb etsələr də, selin qabağında dura bilməyəcəklərini anlayırlar. Molla rejimi ölkədə olan sosial problemləri, insanların hüquqlarının kobud surətdə pozulmasını görməzdən gəlib, etirazları xarici faktorla əlaqələndirir, xalqı çaşdırmağa çalışır. Ölkədə baş verən prosesləri "sionist rejim"in işi adlandırır. Əslində, İran "ruhaniləri" əsl dinsizliyi özləri edirlər. Dini zülm alətinə çevirməklə, müsəlmanın düşməni olan ermənilərlə əməkdaşlıq, müttəfiqlik etməklə, islam dininin müqəddəs qanunlarına xəyanət etmiş olduqlarını unudurlar.

İran rejimi Azərbaycana qarşı 30 ildən çoxdur təxribatla məşğuldur. Əvvəllər bunu gizli edirdisə, artıq bunu tam açıq müstəviyə keçiriblər. Azərbaycana qarşı təxribatlar, ölkəmiz əleyhinə bəyanatlar, 30 ildə Ermənistana dəstək, onlara silah-sursat vermək, Azərbaycanın sərvətlərini talan etmək, bir sözlə, bacardıqları bütün pislikləri ediblər. Azərbaycanda geniş casus şəbəkəsi yaratmaq, kəşfiyyat məlumatlarını toplayıb Ermənistana ötürmək, işğalçını əsgəri qüvvə ilə təmin etmək, iki qonşu arasında sağlam münasibətləri tamamilə pozmaq və körpüləri dağıtmaq İranın mənfur əməlləridir. Azərbaycan isə İrana qarşı həmişə səbir göstərib, normal münasibət qurmağa çalışıb. Təəssüf ki, molla rejimi ölkəmizin xoş niyyətini dəyərləndirmək əvəzinə münasibətləri daha da gərginləşdirmək yolunu tutub.

Molla rejiminin sonu yaxınlaşdıqca özünənəzarəti itirir. İslahatlar keçirib, xalqın tələb və təkliflərini dəyərləndirmək əvəzinə qonşularla, hətta uzaq dövlətlərlə münasibətləri pozub təhdid, hədə dili ilə danışır. Sanki region üçün təhlükə mənbəyi olduğunu isbatlamağa çalışır. Elə 2023-cü il martın 11-də İran İslam Respublikasına məxsus hərbi təyyarənin saat 09:44-dən 10:26-dək fasiləsiz olaraq Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə uçuşu da İranın qəsdən gərginlik yaratmasına xidmət edirdi. Ayətullahların beynəlxalq hüquqa zidd, heç bir əndazəyə sığmayan bu hərəkətləri ölkəmizi provakasiyaya çəkməyə cəhdlə yanaşı, sanki test xarakteri daşıyırdı. "İslamçılar" elə bil bununla ölkəmizin və dünya birliyinin məsələyə reaksiyasını öyrənmək istəyirdilər. İranın İki ölkə arasında münasibətləri daha da gərginləşdirməyə xidmət edən bu hərəkətinə böyük dövlətlərin münasibəti də sərt oldu. ABŞ Dövlət departamentinin sözçüsü Ned Prays mətbuat brifinqində bildirib ki, "Azərbaycan və İran arasında vəziyyətə gəlincə, əlbəttə ki, İran regionda zərərli aktor olub. Bu ölkə zərərli işlərlə, həm yaxın, həm də uzaq qonşularını təhdid edən fəaliyyətlərlə məşğul olur. Ona görə də biz belə gərginlikləri narahatlıqla izləyirik". Sirkə nə qədər tünd olsa öz qabına ziyan vurar. İranın etdiyi qanunazidd hərəkətləri elə öz sonunu getdikcə yaxınlaşdırır, çənbər daha çox daralır. Daha çox zorakılıqla, təhdidlə müşayiət olunan İran hakimiyyəti sonunun yaxınlaşdığını dərk etdikcə daha çox aqressivləşir.

Müstəqil Azərbaycana təsir göstərə bilməyəcək gücdə olduğunu dərk edən İran Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı daha amansız davranır. Prezident İlham Əliyevin İranda yaşayan 40 milyonluq türklərin hüquqları, ana dilləri ilə bağlı məsələni dünya ictimaiyyətinə çatdırması, onları müdafiə etməsi molla rejiminə vurulan ağır zərbə oldu.

Ölkəmizdə casus şəbəkəsi yaratmaqla məşğul olan İran anlamalıdır ki, Cənubda 40 milyonluq canı bir, qanı bir soydaşımız yaşayır. İran Azərbaycanı təhdid edə biləcəyi ölkə deyil.

Ermənistanın xalqımıza, vətənimizə qarşı etdiyi cinayətlərdə, törətdikəri bütün vəhşiliklərdə İranın da əli var. Bir gün gələcək, cənublu soydaşlarımıza "ayətullah"lar bunun cavabını verməli olacaqlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 15 mart.- S.12.